Sənət+ 14 oktyabr 2020-ci il (çərşənbə) ŞƏRQ

# Hər işdə bir xeyir var

## Mələkxanım Əyyubova: "Yaşa Azərbayjan"ı oxudum, uğurlu oldu



Tarix boyu xislətlərini daim büruzə verən erməni terrorçuları Azərbaycanın cəbhə xəttindən xeyli uzaqda yerləşən şəhərlərini raket atəşinə tuturlar. Düşmənin beynəlxalq hüquqları heçə sayan terror əməlləri nəticəsində mülki vətəndaşlarımız həlak olur.

Ancaq düşmənin heç bir təxribatı otuz ildir yurd həsrəti çəkən məğrur xalqımızı yolundan döndərə bilməz.

"Sherg.az"a danışan tanınmış muğam ifaçısı, Xalq artisti Mələkxanım Əyyubova da qələbə gözləyir. Sənətkar Qarabağda keçirdiyi günləri xatırlayaraq 90-cı illərdə Xocalıda, Şuşada konsertlər verdiyini söyləyib: "Ona görə o illər, Qarabağ yadımdan çıxmır. Sevindirici haldır ki, yavaş-yavaş torpaqlarımız işğaldan azad olunur. Göydə Allaha, yerdə dövlət başçımıza güvənirik. İndi millətimiz, xalqımız birdir. Elə cavanlarımız var, o torpaqları görməyib, yaşı azdır. Amma necə vətənpərvərdir, torpaq uğrunda döyüşə hazırdır. Bu, bizim millətimizin qanında var. Xalqımız körpəsindən qocasına qədər vətəninə bağlıdır. Bu gün hamımız vuruşmaq üçün hazırıq. Məndən soruşurlar, hadisələr haqqında fikrimi öyrənirlər. Deyirəm ürəyim rahatdır. Çünki Ali Baş Komandanımız, müzəffər ordumuz və bizə dəstək olan insanlar var. Ona görə qələbə bizimlə olacaq. İnşallah, torpaqlarımız azad olunsun. Artıq geriyə yol yoxdur. Anjaq irəli gedəcəyik. Hər şey yaxşı olajcaq. Biz güclü xalqıq. Mən bir az kövrək adamam. Ona görə qəhərlənirəm. Bir də bu yaxınlarda "Yaşa Azərbaycan" mahnısını ifa etdim. Çox müraciət olunmuş əsərdir. Amma birdən ağlıma gəldi ki, mən də oxuyum. Dərhal işlərə başladım, ifa etdim, mahnını yazdırdım. İndi bütün radiolarda səslənir. İndi deyirəm ki, Allahım, hər işdə bir xeyir var. O mahnım nə qədər uğurlu oldu. Bir sözlə, tam qələbə qazanacağımız günü gözləyirik. İnşallah, yaxındır!"

**Xalq artisti həmçinin ermənilərin Gəncədə törətdiyi terror hadisəsindən də söz açıb:**

"Ermənistanın terrorçu dövlət olduğu bu gün açıq-aşkar ortadadır. Mülki vətəndaşlarımıza atəş açmaq vicdansızlıqdır. Onlara nə pis söz desək, azdır. Gəncə hadisələrində uşaqları qan və yara içərisində gördüm, çox üzüldüm. Mülki insanların nə günahı var? Ermənilər hər zaman vəhşiliklər törədib. Amma millətimizin ürəyi gözəldir. Ordumuz heç sıravi vətəndaşlara toxunmur. Biz ancaq döyüş meydanında öz torpaqlarımız uğrunda savaşırıq".

**Samirə Ərəbova**